UOT: 332:332.1; JEL: R10; R11; R19

Yunis Əvəz oğlu ƏVƏZOV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı,
E-mail: **avazovy@gmail.com**
https://doi.org/10.30546/4.71.73001.2025.003.062

AZƏRBAYCANDA İQTİSADİ RAYONLARIN İNKİŞAF PROSESLƏRİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Tədqiqatın məqsədi Azərbaycanda iqtisadi rayonların sosial-iqtisadi inkişaf proseslərinin təhlilindən və qiymətləndirilməsindən ibarətdir.

Tədqiqatın metodologiyası formasında analiz, sintez, müqayisəli təhlil və ümumiləşdirmə daha çox ön plana çəkilmişdir. Bunlarla bərabər, ölkənin iqtisadi rayonlarında sosial-iqtisadi inkişaf proseslərinin təhlili və qiymətləndirilməsi üzrə müxtəlif tədqiqatlara istinad edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti baxımından qeyd etmək olar ki, milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi kontekstində ölkənin iqtisadi rayonlarının sosial-iqtisadi inkişaf proseslərinin təkmilləşdirilməsi vacib hesab olunur.

Tədqiqatın nəticələri nöqteyi-nəzərindən məqalədə alınmış elmi müddəalardan ölkənin iqtisadi rayonlarının inkişaf etdirilməsi üzrə daha səmərəli fəaliyyət mexanizmlərinin hazırlanmasında istifadə etmək mümkündür.

Tədqiqatın orijinallığı və elmi yeniliyi baxımından, əsas etibarı ilə müasir şəraitdə ölkə regionlarının mövcud resurslarından məhsuldar istifadə olunmasında və iqtisadi inkişaf proseslərinin intensivləşdirilməsində yeni yanaşmaların formalaşdırılması və fəaliyyət mexanizmlərinin tətbiqinin vacibliyi əsaslandırılmışdır. Ölkənin müxtəlif iqtisadi rayonlarının əmək resurslarından və təbii ehtiyatlarından bəhrələnməklə, regionlarda iqtisadi fəallığın artırılması və sosial-iqtisadi inkişaf proseslərinin sürətləndirilməsi üçün təkliflər verilmişdir.

Açar sözlər: Azərbaycan, regionlar, iqtisadi rayonlar, regional inkişaf səviyyəsi, iqtisadi rayonların inkişaf səviyyəsi, iqtisadi rayonların inkişaf perspektivləri, iqtisadi rayonların inkişaf problemləri, regional iqtisadiyyatın səmərəlilik problemləri.

Giriş

"Sosial-iqtisadi inkişaf" termini tez-tez müxtəlif birləşmələrdə istifadə olunur: sosial-iqtisadi inkişaf, iqtisadi inkişaf, ölkənin iqtisadi inkişafı, regionun, iqtisadi rayonun, şəhərin inkişafı. Sosial-iqtisadi inkişaf çox vaxt hər hansı mütərəqqi dəyişiklik, ilk öncə, iqtisadi sahədə baş verən dəyişikliklər deməkdir. İnkişafdan söhbər gedərkən sırf iqtisadi xüsusiyyətlərlə yanaşı, çox vaxt inkişafın sosial parametrləri də nəzərə alınır. Sosial-iqtisadi inkişafın həmişə məqsəd və ya məqsədlər sistemi ilə müəyyənləşdirilmiş istiqaməti olur. Əgər bu istiqamət müsbətdirsə, o zaman tərəqqi, əgər mənfidirsə, onda reqressiya və ya deqradasiya baş verir. Başqa sözlə desək, regional inkişafın xarakteri həmişə konkret məqsəd və ya bir neçə məqsədi nəzərdə tutur.

Hazırda dünyanın müxtəlif ölkələrində və onların regionlarında əhalinin həyat keyfiyyətinin yüksəldilməsi iqtisadi inkişaflarında əsas məqsədlərdəndir. Buna görə də sosial-iqtisadi inkişaf prosesi üç önəmli komponenti əhatə edir: əhali gəlirlərinin artırılması, təhsil səviyyəsinin yüksəldilməsi və sağlamlığının yaxşılaşdırılması; insan ləyaqətinə, hörmətə yönəlmiş iqtisadi, sosial, institusional və siyasi sistemlərin formalaşması nəticəsində insanların özünəinamının artmasına şərait yaradılması; insanların azadlıq dərəcəsinin artırılması. Hazırda Azərbaycanda qeyri-neft sektorunun inkişafı əsas prioritetlərdən olduğundan ölkəmizin bütün iqtisadi rayonlarının inkişaf etdiriməsi və bunun üçün onların mövcud vəziyyəti qiymətləndirilməli və təhlil edilməlidir. Məlumdur ki, Böyük Vətən müharibəsinə qədər, yəni torpaqlarımız erməni işğalı altında olana qədər Azərbaycanda 12 iqtisadi rayon olmuşdur. Lakin torpaqlarımız erməni işğalından azad

olunandan sonra iqtisadi rayonların bölgüsünə yenidən baxılması zərurəti yaranmış və ölkə Prezidenti bu zərurətdən irəli gələrək 14 iqtisadi rayonu əhatə edən yeni bölgünü 7 iyul 2021-ci il tarixli sərəncamla təsdiqləmişdir. Əsas məqsəd işğaldan azad edilmiş ərazilərin və bu ərazilərdə yeni bölgü ilə təsdiq edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkə iqtisadiyyatına reinteqrasiyası, habelə digər iqtisadi rayonların iqtisadiyyatının idarə edilməsində çevikliyin təmin edilməsi və inkişaflarının artım templərinin yüksəldilməsidir [3].

Ölkənin iqtisadi rayonlarında inkişaf proseslərinin müasir vəziyyətinin tədqiqi

Azərbaycan iqtisadiyyatının müasir inkişaf mərhələsində iqtisadi rayonların sosial-iqtisadi inkişafında keyfiyyət dəyişiklikləri baş verir. Ölkənin hər bir subyektində sosial-iqtisadi inkişafın effektiv istiqamətləri vasitəsilə müəyyənləşdirilmiş problemlərin həlli məqsədilə optimal istiqamətlərin hazırlanması zərurəti iqtisadi rayonların iş şəraitindəki fərqlər və uyğunsuzluqlarla bağlıdır. Azərbaycanda iqtisadi rayonların inkişafının sosial prioritetləri sosial infrastruktur obyektlərinin istehsal infrastrukturu obyektləri ilə bərabər əhəmiyyətinin artırılması, habelə onların regional iqtisadiyyatın fəaliyyəti baxımından maddi-texniki baza elementləri kimi qəbul edilməsidir. Konkret məqsəd və ya məqsədlər sistemi həmişə iqtisadi rayonların sosial-iqtisadi inkişaf istiqamətini müəyyənləşdirir. İqtisadi rayonlarda sosial-iqtisadi inkişafın əsas komponentlərinin tərkib elementləri bunlar ola bilər: iqtisadi rayonlarda istehsalın səmərəliliyinin artırılması və nəticədə əhalinin gəlir səviyyəsinin yüksəldilməsi; cəmiyyətin institusional və sosial komponentlərində transformasiyalara töhfə verən ictimai şüurda dəyişikliklər; insan adət və vərdişlərinin transformasiyası.

Müasir şəraitdə aktual vəzifələrdən biri Azərbaycanda iqtisadi rayonların sosial-iqtisadi inkişafının davamlılığı, təhlükəsizliyinin təmin edilməsi, sabitləşməsi və daim yenilənməsi və təkmilləşdirilməsidir. Əgər regional iqtisadi sistemin bütün alt sistemləri sabitdirsə, deməli regional sistemin özü də sabitdir. Başqa sözlə desək, iqtisadi rayonların sabitliyi onun bütün ərazi qurumlarının, müəssisə və təşkilatlarının sabitliyini şərtləndirir. Belə sabitlik dayanıqlılığın və ya iqtisadi artımın minimum xərclərlə, iqtisadi və sosial təminatla daimi təmin edilməsi ilə müəyyənləşdirilir ki, bu da iqtisadi rayonların əhalisinin maddi və mənəvi tələbatlarının daha dolğun ödənilməsinə şərait yaradır [5, s.50]. Müasir elmdə iqtisadi rayonların sosial-iqtisadi inkişaf səviyyəsini qiymətləndirmək məqsədilə müxtəlif yanaşma və üsullar mövcuddur. Bununla belə, iqtisadi rayonlar səviyyəsində sosial-iqtisadi inkişafın hərtərəfli qiymətləndirilməsi üçün yanaşmalar azdır. Belə bir vəziyyətin qiymətləndirilməsinə müasir yanaşmaların necə formalaşdığını başa düşmək məqsədilə sosial-iqtisadi inkişaf konsepsiyalarına, habelə onların qiymətləndirildiyi göstəricilərə nəzər salaq. İqtisadi rayonların sosial-iqtisadi inkişafı üçün prioritetlərin seçilməsi onun inkişaf konsepsiyasının əsaslılığından, hazırlanmış və formalaşmış iqtisadi artım və inkişaf modelindən, onların hər biri üçün konkret meyarlardan və tələblərdən asılıdır. Bu kontekstdə qeyd edilməlidir ki, prioritetlər, onların seçilməsi və reallaşdırılması iqtisadi rayonların fəaliyyətinin nəticələrinin yaxşılaşmasına və artmasına gətirib çıxarmalıdır [11, s.21].

İqtisadi rayonların sosial-iqtisadi inkişafını qiymətləndirmək üçün bir çox müəlliflər aşağıdakı göstəricilərdən istifadə etməyi təklif edirlər: ölkə üzrə ÜDM, adambaşına düşən ÜDM, iqtisadi rayonlar üzrə ÜDM, əhali gəlirləri, alıcılıq qabiliyyəti pariteti, regional büdcənin həcmi, əsas kapitala investisiya, istehsal həcmi, inflyasiya səviyyəsi, təhsilin, səhiyyənin vəziyyəti, yaradılan yeni iş yerlərinin sayı və s. İnteqral qiymətləndirmənin üstünlüyü müxtəlif göstəricilərin sistemləşdirilməsi və ümumi qiymətləndirməyə gətirilməsidir. Bu yanaşmanın mənfi cəhəti ondan ibarətdir ki, müxtəlif göstəricilər həmişə bir-biri ilə müqayisə oluna bilmir, məsələn, gözlənilən ömür uzunluğu və adambaşına düşən ÜDM göstəriciləri. Fikrimizcə, iqtisadi rayonların sosial-iqtisadi inkişafının qiymətləndirilməsi inteqral göstəricilərdən istifadə olunmaqla aparılmalıdır. Qiymətləndirmə üçün aşağıdakı göstəricilərdən istifadə etməyi təklif edirik:

- əhalinin alıcılıq qabiliyyətinin artırılması. Bu göstəricini obyektiv qiymətləndirmək üçün orta gəlirdən istifadə etmək tövsiyə olunur;
- gözlənilən ömür. Bu göstəricini nəzərdən keçirərkən, iqtisadi rayonların xüsusiyyətlərini,

habelə müəyyən bir ömür uzunluğunun səbəblərini nəzərə alaraq məlumatlardan istifadə etmək tövsiyə olunur;

- tibbin əlçatanlığı və keyfiyyəti. Qiymətləndirmə üçün əsas kimi iqtisadi rayonların bütün sakinləri üçün dərman vasitələrinin mövcudluğu, göstərilən tibbi xidmətlərin keyfiyyəti və digər komponentlərin nəzərə alınması təklif olunur;
- təhsilin səviyyəsi və keyfiyyəti. Bu göstərici orta, ali təhsilli şəxslərin, elmi dərəcəsi olanların sayını nəzərə alır;
- resurslardan istifadənin səmərəliliyi. Bu göstərici iqtisadi rayonun mövcud resurslardan, o cümlədən maliyyə resurslarından nə dərəcədə bacarıqla istifadə etdiyini göstərir;
- investisiyaların həcmi. Bu göstəricini təkcə kəmiyyət göstəricisi kimi deyil, habelə adambaşına düşən ÜDM-in payı kimi qiymətləndirmək olar;
- gəlirin diferensiasiyası. Cəmiyyətin təbəqələşməsi yüksək olanda iqtisadi rayonun sosial-iqtisadi inkişafı aşağı, aşağı olanda isə əksinə, yüksək olur.

İqtisadi rayonların sosial-iqtisadi inkişafının təhlili təhlil edilən dövrün faktiki və plan göstəricilərinin əvvəlki illərin müvafiq göstəriciləri ilə müqayisəsi əsasında aparılır və əsas məqsəd: faktiki göstəricilərin hansı səbəblərdən plan və baza illərinin göstəricilərindən kənarlaşmalarının müəyyənnləşdirilməsi; inkişaf etdirilməli olan müsbət və qarşısı alınmalı olan mənfi tendensiyaların müəyyənləşdirilməsi; iqtisadi rayonlar üzrə sənaye müəssisələrinin ayrı-ayrı fəaliyyət sahələrinin inkişafında balanssızlıqların aşkar edilməsi; artım ehtiyatlarının müəyyənləşdirilməsi [10, s.107]. İqtisadi rayonların sosial-iqtisadi vəziyyətinin təhlili istiqamətləri:


1. Demoqrafik vəziyyət – miqrasiya, sağlamlıq vəziyyəti, doğum və ölüm səviyyəsi, gözlənilən ömür uzunluğu.
2. İstehsalın vəziyyəti – istehsal müəssisələrinin sayı, strukturu, istehsalın ümumi həcmi, dinamikası.
3. Maliyyə vəziyyəti – iqtisadi rayonun vergi potensialı, regional büdcənin və müəssisələrin maliyyə vəziyyəti.
4. İnvestisiyalar – iqtisadiyyata, əsas kapitala investisiyalar, istifadəyə verilmiş mənzillərin və digər obyektlərin sayı.
5. Ərazinin təbii ehtiyatları – təbii ehtiyatlardan istifadə imkanları, səviyyəsi və səmərəliliyi.
6. Sosial sahənin vəziyyəti – səhiyyənin, təhsilin, mədəniyyətin, elmin, məşğulluğun vəziyyəti, cinayətkarlığın səviyyəsi.
7. Əhalinin həyat səviyyəsi - orta aylıq əməkhaqqı, minimum əməkhaqqı, istehlak səbəti, yaşayış minimumu,
8. Mənzil-kommunal təsərrüfatı və nəqliyyat kompleksi – göstərilən kommunal və nəqliyyat xidmətlərinin həcmi, qiymət və tariflərin dinamikası və s.
9. İstehlak bazarının vəziyyəti - ticarət, ictimai iaşə, məişət xidmətlərinin həcmi.
10. Ekoloji vəziyyət – ətraf mühitə atılan zərərli emissiyaların həcmi, ekoloji tarazlığın təmin edilməsi.

Yeni şəraitdə Azərbaycanda iqtisadi rayonların inkişafının intensivləşdirilməsi yolları

İqtisadi rayonların sosial-iqtisadi inkişafı qiymətləndirilərkən müxtəlif meyarlar əsas götürülür ki, bunlar istehsal həcminin artması, yaşayış səviyyəsinin artması, yerli əhalinin istehsal proseslərinə cəlb olunma səviyyəsi (burada yerli əhalinin konkret ərazinin iqtisadiyyatına cəlb olunma səviyyəsi qiymətləndirilir), torpaqdan rasional istifadə göstəriciləridir. Müasir dövrdə Azərbaycanda iqtisadi rayonların sosial-iqtisadi inkişaf səviyyəsini təhlil etmək üçün yuxarıda qeyd edilən bəzi əsas göstəriciləri təhlil edək. Sənaye sektoru istənilən iqtisadi rayonda iqtisadi fəaliyyət növləri arasında önəmli yer tutur. İqtisadi rayonlarda iri sənaye müəssisələrinin inkişafı onların sənaye ixtisasının formalaşmasında önəmli rol oynayır. Azərbaycanda həyat keyfiyyətinin yaxşılaşdırılması və işsizliyin azaldılması baxımından sənayenin inkişafı əsas şərtlərdən biridir. İqtisadi rayonlarda məşğulluq imkanlarını artırmaq, işsizliyi azaltmaq və insanların həyatını yaxşılaşdırmaq sənayeləşmənin əsas məqsədlərindəndir. Azərbaycanın bir çox sosial-iqtisadi və

mədəni problemlərinin həllində aparıcı rolu məhz sənaye həll edir [9, s.79]. Odur ki, iqtisadi rayonlar üzrə sənaye müəssisələrinin sayını və həmin müəssisələr üzrə məhsulun həcminin təhlil edilməsi maraq doğurur.


Ölkə üzrə sənaye müəssisələrinin sayı 4691 vahid olub ki, bunların 2687-si və ya 57,3%-i Bakı şəhərində yerləşmişdir. Yeni bölgü ilə yaradılmış Qarabağ və Şərqi Zəngəzur üzrə həmin müəssisələrin sayı isə 142 vahid olub ki, bu da ölkə üzrə ümumi müəssisələrin 3,0%-i deməkdir. 2022-ci ilə görə Qarabağda fəaliyyət göstərən müəssisələrin sayı 24 vahid, Şərqi Zəngəzur üzrə isə 5 vahid artmışdır (şəkil 1).



Şəkil 1. 2023-cü ildə iqtisadi rayonlar üzrə müəssisələrin sayı [4].
Mənbə: *ARDSK əsasında tərtib edilib*

2023-cü ildə ölkə üzrə sənaye məhsulunun həcmi 67296,0 milyon AZN olub ki, bunun da 56526,9 milyon AZN-i və ya 84,0%-i Bakı şəhərinin payına düşür (şəkil 2). 2023-cü ildə sənaye məhsulunun 45117,5 milyon AZN-i və ya 67,0%-i mədənçıxarma sənayesinin və həmin sənaye müəssisələrinin əsas hissəsinin neft-qazçıxarma sənayesi müəssisələrinin olduğu və bunların da Bakı şəhərində cəmləşdiyini nəzərə alsaq, bu iqtisadi rayon üzrə sənaye məhsulunun həcmi ilə digər iqtisadi rayonlar üzrə sənaye məhsulunun həcmi arasındakı kəskin fərqin olmasını görmək olar. Lakin hazırda Azərbaycanın qarşısında əsas prioritet vəzifə neft-qaz sektorundan asılılığı azaltmaq, qeyri-neft-qaz sektorunu inkişaf etdirməkdir ki, bu da digər iqtisadi rayonlarda sənaye müəssisələrinin diversifikasiyalaşdırılmasını zərurətə çevirir. Qeyd edək ki, Azərbaycanın digər iqtisadi rayonlarında da, o cümlədən Qarabağ və Şərqi Zəngəzur bölgələrində də sənaye məhsulunun həcmini artırmaq üçün kifayət qədər təbii-resurs potensialı mövcuddur. Həmin potensialın təsərrüfat dövriyyəsinə cəlb edilməsi infrastrukturların inkişaf səviyyəsindən asılıdır.


Azərbaycanın iqtisadi rayonlarında, xüsusilə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda çevik və daha intensiv şəkildə infrastruktur obyektləri şəbəkəsinin yaradılması günün tələbidir. Bu iqtisadi rayonlarda enerji təchizatının gücləndirilməsi onların daha sürətli bərpasına və canlanmasına səbəb olacaq. Enerji infrastrukturunun yaradılması ilə yanaşı, bərpa olunan enerji potensialının dəqiq hesablanmasına da xüsusi önəm verilir. Bu iqtisadi rayonlar su, günəş, külək, bioenerji və geotermal enerji kimi güclü bərpa olunan enerji mənbələrinə malikdir. Həmin potensialların iqtisadi səmərəliliyini tam qiymətləndirmək üçün hələ çox işlər görülməlidir [6, s.254].



Şəkil 2. 2023-cü ildə iqtisadi rayonlar üzrə sənaye məhsulunun həcmi
Mənbə: *ARDSK əsasında tərtib edilib*


İqtisadi rayonların sosial-iqtisadi inkişafı xeyli dərəcədə onların sosial infrastrukturlarının inkişaf səviyyəsindən asılıdır. İqtisadi rayonların sosial infrastrukturunun inkişafının məqsəd və istiqamətləri əsasən dövlət siyasətindən və strateji inkişaf prioritetlərindən irəli gəlir. Buna görə iqtisadi rayonların həmin infrastrukturunun inkişafı üçün sosial məqsədlərlə yanaşı, iqtisadi məqsədləri də müəyyənləşdirmək lazımdır [8, s.306].

Məlumdur ki, iqtisadi rayonların inkişafına onların sosial sahəsinin inkişafı hesabına təkan vermək olar. Sosial sferanın inkişafının əsas istiqamətlərindən biri əmək bazarının inkişaf etdirilməsidir. İqtisadi rayonlar üzrə əmək bazarının əsas göstəricilərindən əsası məşğul əhalinin sayı olduğunu nəzərə alsaq, bu göstəricinin də təhlili maraq doğurur (şəkil 3).



Şəkil 3. 2023-cü ildə iqtisadi rayonlar üzrə məşğul əhalinin sayı, min nəfər [1].
Mənbə: ARDSK əsasında tərtib edilib

Ölkə üzrə məşğul əhalinin sayı 2023-cü ildə 4963,3 min nəfər olub ki, bunun 1192,9 min nəfəri və ya 24,0%-i Bakı şəhərinin, 8,9%-i Mil-Muğan, 9,6%-i Qarabağ və Şərqi Zəngəzur, 7,9%-i Abşeron-Xızı və yerdə qalan hissəsi isə digər iqtisadi rayonların payına düşmüşdür. İşsiz statusu almış şəxslərin sayı isə şəkil 4-də əks olunub.



Şəkil 4. İqtisadi rayonlar üzrə 01.01.2024-cü il tarixinə işsiz statusu alan əhalinin sayı, nəfər.

Mənbə: *ARDSK əsasında tərtib edilib*


Şəkil 4-ə diqqət yetirsək görərik ki, 01.01.2024-cü il tarixinə ölkə üzrə işsiz statusu alanların sayı 217608 min nəfər olub ki, bunun 21,1%-i Bakı şəhərinin, 9,85-i Lənkəran-Astara, 8,9%-i Qarabağ, 8,6%-i Mərkəzi Aran, yerdə qalan hissəsi isə digər iqtisadi rayonların payına düşür. Göründüyü kimi, Bakı şəhəri üzrə göstəricilərin çoxunda digər iqtisadi rayonlarla müqayisədə kəskin fərq olduğu halda, işsiz statusu alanların xüsusi çəkisində çox fərq yoxdur.

İqtisadi rayonların sosial-iqtisadi inkişafına kömək edə biləcək vasitələrdən biri nəqliyyat-logistika dəhlizləridir. Belə dəhlizlərin yaradılmasının önəmliliyi ölkə prezidenti tərəfindən 2021-ci ildə təsdiq edilmiş və 2030-cu ilə qədər olan dövrü əhatə edən milli prioritetlərdə əks olunmuşdur. Həmin milli prioritetlərdə Azərbaycanın yeni regional və beynəlxalq nəqliyyat-logistika dəhlizinin bərpasının ölkəmizin dünya bazarlarına çıxışını genişləndirəcəyi, bütün iqtisadi rayonların, o cümlədən işğaldan azad edilmiş ərazilərin inkişafına önəmli təkan verəcəyi nəzərə alınaraq iqtisadi fəaliyyətə reinteqrasiya və dayanıqlı məskunlaşma kimi iki əsas prioritet məqsədə nail olunması vurğulanır [2].

Ümumiyyətlə, iqtisadi rayonların sosial-iqtisadi inkişafı onlara investisiya yönəltmədən mümkün deyil. İqtisadi rayonların inkişafı üçün hər hansı investisiya strategiyasının məqsədi onların investisiyalarla doldurulması faktı deyil, bacarıqlı və səmərəli inkişafıdır. İnvestisiya metodundan istifadə etməklə hazırlanmış sosial-iqtisadi inkişaf strategiyasının məqsədlərindən biri də iqtisadi rayonlarda kapitalın müsbət və ya mənfi balansını formalaşdıran amillərin məcmusu olan investisiya cəlbediciliyinin artırılmasıdır ki, o da, investisiya potensialı və investisiya riski ilə müəyyənləşdirilir. İqtisadi rayonların investisiya potensialı onların iqtisadi inkişafı üçün təxmin edilən imkanlarıdır.

Azərbaycan iqtisadi rayonlarına investisiya qoyuluşunun məqsədəuyğunluğunu şərtləndirən əsas amillər maddi istehsal və xidmət sektorunun genişləndirilməsi, yeni fəaliyyət sahələrinin yaradılması və mövcud maddi-texniki bazanın yenilənməsi zərurəti və s. ilə bağlıdır [7, s.28].

İqtisadi rayonlara investisiya axınını artırmaq və bunun üçün cəlbedici şərait yaratmaq məqsədilə bir sıra tədbirlər görülməlidir ki, buna aşağıdakı yollarla nail olmaq olar: Birincisi, bəzi iqtisadi rayonlarda sadələşdirilmiş vergitutma sistemindən istifadə edən sahibkarlıq subyektləri üçün güzəştli vergi dərəcəsi müəyyənləşdirilməlidir. Mikro müəssisələrin subsidiya və güzəştli kreditlər almaq imkanları artırılmalıdır. İkincisi, investisiya layihələri üçün prioritet istiqamətlər müəyyənləşdirilməlidir. Üçüncüsü, investisiya qoyuluşu və təminatların verilməsi məqsədi ilə vəsaitlər formalaşdırılmalı və istifadə edilməlidir. Bu yollarla iqtisadi rayonlar üzrə ümumi məhsul buraxılışını artırmaq olar. İndi isə şəkil 5-in məlumatlarından istifadə etməklə iqtisadi rayonlar üzrə ümumi məhsul buraxılışının həcmini təhlil edək.



Şəkil 5. 2023-cü ildə iqtisadi rayonlar üzrə məhsul buraxılışının həcmi, milyon AZN
Mənbə: *ARDSK əsasında tərtib edilib*

Qeyd edək ki, ölkə üzrə 2023-cü ildə ümumi məhsul buraxılışı 131304,5 milyon AZN olub və onun əsas hissəsi, yəni 51,3%-i sənaye sektoru üzrədir. Bakı şəhəri üzrə ümumi məhsul buraxılışının xüsusi çəkisi isə 69,5% təşkil edib ki, bu da digər iqtisadi rayonlara nisbətən çox yüksək fərqdir. Belə ki, Bakı şəhərindən sonra ümumi məhsul buraxılışında ikinci yerdə 6,0% olmaqla Abşeron-Xızı iqtisadi rayonunun qərarlaşması bunu deməyə əsas verir.

Nəticə

Ümumiyyətlə, iqtisadi rayonların sosial-iqtisadi inkişaf göstəricilərinin öyrənilməsi regional iqtisadiyyatın idarə edilməsinin əsas metodudur. Bu üsulda iqtisadi rayonlarda iqtisadiyyatın real vəziyyətini əks etdirən statistik göstəricilər sistemindən istifadə edilir. Təhlil iqtisadi rayonların inkişafına mane olan iqtisadiyyatın zəif tərəflərini araşdırmağa, həmçinin gələcək artım üçün prioritet istiqamətləri və sosial-iqtisadi inkişaf strategiyasını müəyyənləşdirməyə kömək edir.

İnkişafın indiki mərhələsində əhalinin rifahının yüksəldilməsi və sabit iqtisadi inkişaf problemlərinin həlli iqtisadi rayonların inkişafı hesabına reallaşdırılır. İqtisadi rayonların inkişafının prioritet məqsədləri iqtisadi vəziyyətin sabitləşdirilməsi, yoxsulluğun azaldılması və əhalinin həyat şəraitinin yüksəldilməsi və yaxşılaşdırılmasıdır. Dövlətin hərtərəfli inkişafının hədəf istiqamətlərindən biri kimi iqtisadi rayonların səmərəli sosial-iqtisadi inkişafını təmin etmək üçün uzunmüddətli perspektivdə aşağıdakı tədbirlərin görülməsi lazımdır:

- iqtisadi sektorların inkişafı üçün şəraitin əlaqələndirilməsi, respublika və regional səviyyədə tədbirlər görməklə hər bir iqtisadi rayonun rəqabət üstünlükləri nəzərə alınmaqla iqtisadi artımın

əldə edilməsi;

- əhalinin keyfiyyətli təhsil, tibbi və mədəni xidmətlər alması üçün qanunla müəyyənləşdirilmiş imkanların yaradılmasının təmin edilməsi, iqtisadi rayonlara maliyyə dəstəyinin göstərilməsi;
- dövlətin maliyyə-iqtisadi siyasətində nəzərdə tutulmuş transformasiyalar reallaşdırılarkən diferensiasiyanın azaldılması məqsədilə iqtisadi rayonlara maliyyə dəstəyi göstərilməsi;
- iqtisadi rayonların infrastrukturuna dövlət investisiyalarının artırılması və investisiya mühitinin yaxşılaşdırılması;
- iqtisadi rayonların infrastrukturunun inkişafı, o cümlədən onların sosial inkişafı və nəqliyyat əlçatanlığı məsələlərinin həlli;
- verilmiş səlahiyyətlərin səmərəli reallaşdırılması məqsədilə iqtisadi rayonların və yerli özünüidarəetmə orqanlarının maliyyə həvəsləndirilməsi mexanizmlərinin təkmilləşdirilməsi və onların sosial-iqtisadi inkişafı baxımından əlverişli şərait yaradılması və s.

ƏDƏBİYYAT

1. ARDSK. [Elektron resurs] / URL: https://www.stat.gov.az/source/labour/.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – Bakı, – 2 fevral 2021.
3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – Bakı, 07 iyul 2021.
4. Azərbaycan sənayesi. Statistik məcmuə. Bakı, 2024, – 228 s. [Elektron resurs] / URL: file:///C:/Windows/Temp/Rar$DIa1264.1312/senaye_2024.pdf//.
5. Əhmədova, Ə.Ə. Regionların sosial-iqtisadi inkişafının prioritet istiqamətləri. Audit, – 2023. 3 (41), – s. 47-54.
6. Əliyev, Ş.T. Qarabağ regionunda bərpa və dirçəliş proseslərinin aktual aspektləri. “Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər” mövzusunda Respublika elmi konfransının materialları. – Sumqayıt. – 22-23 aprel 2021. №2, – s.253-256.
7. Quliyeva, A.E. Azərbaycan Respublikasının regional inkişaf proqramlarının maliyyə-kredit təminatı və onun səmərəliliyinin yüksəldilməsi problemləri. İqtisad üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş diss. avtoreferatı./ – Bakı, 2018. – 49 s.
8. Osmanov, İ.O. Regionlarda sosial infrastrukturların inkişaf istiqamətləri. “Regional iqtisadiyyat: müasir aspektlər və aktual məsələlər” mövzusunda Respublika elmi konfransının materialları. – Sumqayıt. – 22-23 aprel 2021. №2, – s.304-309.
9. Paşazadə, R.M. Qarabağ ərazisində sənayeləşmə strukturunun formalaşdırılması istiqamətləri. Audit, – 2023. 4 (42), – s. 78-85.
10. Барышова, Ю.Н. Критерии оценки социально- экономического развития региона / Ю.Н. Барышова, Д.Е. Мигачева // Вестник Московской международной академии. – 2020. № 1-2, – с. 106-109.
11. Токаев, Н.Х. О приоритетных направлениях социально- экономического развития региона / Н.Х. Токаев, М.Ш. Баснукаев // Вестник КНИИ РАН. Серия: Социальные и гуманитарные науки. – 2022. № 1(1), – с. 17-22.

Юнис Аваз оглы Авазов
докторант Азербайджанского Университета Кооперации,
E-mail: **avazovy@gmail.com**

Анализ и оценка процессов развития экономических регионов Азербайджана

Резюме

Цель исследования - является анализ и оценка процессов социально-экономического развития экономических регионов Азербайджана.

Методология исследования – использованы методы анализа, синтеза, сравнительного анализа и обобщения. Наряду с этим были упомянуты различные исследования по анализу и оценке процессов социально-экономического развития экономических регионов страны.

Прикладная значимость исследования - можно отметить, что в условиях совершенствования структуры национальной экономики важным считается совершенствование процессов социально-экономического развития экономических регионов страны.

С точки зрения **результатов исследования**, полученные в статье научные положения можно использовать при разработке более эффективных механизмов развития экономических регионов страны.

Научная новизна исследования обоснована важностью формирования новых подходов и применением механизмов действия в продуктивном использовании имеющихся ресурсов регионов страны и интенсификации процессов экономического развития в современных условиях. Путем использования трудовых и природных ресурсов различных экономических районов страны были высказаны предложения по повышению экономической активности в регионах и ускорению процессов социально-экономического развития.

Ключевые слова: Азербайджан, регионы, экономические районы, уровень регионального развития, уровень развития экономических районов, перспективы развития экономических районов, проблемы развития экономических районов, проблемы эффективности региональной экономики.

Yunis Avaz Avazov
doctoral student of Azerbaijan Cooperation University,
E-mail: **avazovy@gmail.com**

Analysis and assessment of the development processes of economic regions of Azerbaijan

Summary

Purpose of the study - is to analyze and evaluate the processes of socio-economic development of the economic regions of Azerbaijan.

Research methodology - methods of analysis, synthesis, comparative analysis and generalization were used. Along with this, various studies on analyzing and evaluating the processes of socio-economic development of economic regions of the country were mentioned.

Applied significance of the research - it can be noted that in the conditions of improving the structure of the national economy it is considered important to improve the processes of socio-economic development of economic regions of the country.

From the point of view of the **research results**, the scientific principles obtained in the article can be used in the development of more effective mechanisms for the development of economic regions of the country.

Scientific novelty of the study - the importance of developing new approaches and applying action mechanisms in the productive use of existing resources in the country's regions and intensifying economic development processes in modern conditions is substantiated. By using the labor and natural resources of various economic regions of the country, to increase economic activity in the regions and accelerate the processes of socio-economic development proposals were made.

Key words: Azerbaijan, regions, economic regions, level of regional development, level of development of economic regions, perspectives for the development of economic regions, problems of development of economic regions, problems of efficiency of the regional economy.